Almaniya Federativ Respublikası

Bundesamt für Migration und Flüchtlinge

euaa
EUROPEAN UNION AGENCY FOR ASYLUM

# BEYNƏLXALQ MÜDAFİƏ ÜÇÜN MÜRACİƏT HAQQINDA BİLMƏLİ OLDUĞUNUZ ƏSASLAR

## MÜŞAYİƏT OLUNMAYAN UŞAQLAR ÜÇÜN MƏLUMAT




Salam. Biz müxtəlif ölkələrdən gəlmiş uşaqlarıq. Müdafiə axtarmaq üçün Almaniyaya çatana qədər uzun yol qət etmişik. Bura təkbaşına, valideynsiz gəlmişik.
Salam. Mənim adım Lisadır. Sizə sığınacaq üçün müraciət (həmçinin beynəlxalq müdafiə adlanır) barədə bilməli olduğunuz əsasları izah edəcəyəm.

# Beynəlxalq müdafiə nədir?







Əgər bir şəxs təhlükə altında olduğu üçün öz vətəninə qayıda bilmirsə, o, beynəlxalq müdafiə ala və bu müdafiəni təmin edən ölkədə təhlükəsiz şəkildə qala bilər.

Qəyumunuz sizə beynəlxalq müdafiənin kimin ala biləcəyi və bununla bağlı prosedurun necə həyata keçirildiyi barədə daha ətraflı məlumat verəcək.

Avropada beynəlxalq müdafiə sığınacaq, qaçqın statusu və ya əlavə müdafiə adlandırıla bilər. Bəlkə də, "sığınacaq" sözünü artıq eşitmisiniz. Mən beynəlxalq müdafiədən danışarkən "sığınacaq" sözündən istifadə edəcəyəm, çünki bunu yadda saxlamaq sizin üçün daha asan olacaq.

## Yadda saxlayın, indi təhlükəsizliyiniz təmin olunub.

Avropada haradan gəlməsindən, dinindən və dərisinin rəngindən asılı olmayaraq hər kəsə bərabər münasibət göstərilir.





Avropada 18 yaşdan kiçik hər kəs uşaq hesab olunur.

Uşaq kimi sizin xüsusi hüquqlarınız var.
Təhlükəsizliyiniz və rifahınız çox vacibdir.



Burada göstərildiyi kimi, sığınacaq orqanlarının əməkdaşları kimi müxtəlif rəsmilərlə görüşəcəksiniz. Onlar sizə özünüz və Avropaya səyahətiniz barədə suallar verəcək.

Unutmayın ki, rəsmi şəxslər sizi qorumaq və sizin üçün ən yaxşısının nə olduğuna qərar vermək üçün buradadırlar.

Siz hər zaman nə düşündüyünüzü, nəyə ehtiyacınız olduğunu və özünüzü necə hiss etdiyinizi rəsmi şəxslərlə bölüşə bilərsiniz.



# Qəyyum kimdir?





Buraya valideynsiz gəldiyiniz üçün səlahiyyətli qurumlar sizə qəyyum adlanan və sizi dəstəkləyəcək bir yetkin şəxs təyin edəcəklər.

Qəyyum — Avropaya valideynsiz və ya onlara cavabdeh olan başqa bir böyüksüz gələn uşaqlara kömək edən şəxsdir.

Qəyyum kişi və ya qadın ola bilər. Qəyyumlar qanuni nümayəndə qismində də çıxış edə bilərlər. Gənclər İdarəsinin əməkdaşları da qəyyum təyin oluna bilərlər.

Əgər siz hələ qəyyumunuzla tanış olmamısansa, ən qısa zamanda onunla görüşəcəksiniz.

Bəzən səlahiyyətli qurumlar, daimi qəyyumunuzla görüşənədək sizə dəstək olmaq üçün əvvəlcə müvəqqəti qəyyum təyin edə bilər.





Qəyyum sizin qalmağınızla bağlı bilməli olduğunuz bütün məqamları izah etmək və mühüm qərarlar verməkdə sizə kömək etmək üçün yanınızdadır. Məsələn, qəyyum sığınacaq üçün müraciətinizdə sizə kömək edəcək, prosedurları izah edəcək, hüquq və vəzifələrinizi açıqlayacaq və səlahiyyətli qurumlarla görüşlərdə sizinlə birlikdə iştirak edəcək.

Siz hər zaman qəyyumunuza öz fikrinizi deyə, ona suallar verə və nəyə ehtiyacınızın olduğunu bildirə bilərsiniz. Onlar, sizə dəstək olmaq üçündür.



Əgər qəyyumunuzla bağlı hər hansı bir probleminiz olarsa, bunun barəsində Gənclər və ya Miqrasiya İdarəsinin əməkdaşlarına bildirin. Bu, sizin sığınacaqla bağlı müraciətinizə mənfi təsir göstərməyəcək.



# Prosedur zamanı hansı dəstək göstəriləcək?





Yatmaq üçün təhlükəsiz yer



Paltar



Bədən baxımı üçün məhsullar



Qida



Həkimə gedə bilərsiniz



Məktəbə gedəcəksiniz



Sizin üçün əlverişli bir yerdə yaşayacaqsınız və yaşınıza görə ehtiyac duyduğunuz köməyi alacaqsınız

# Sığınacaq üçün müraciət etdim, indi nə olacaq?






**Əvvəlcə** müraciətiniz qeydiyyata a**lınmalı və** təqdim edi**lmə**lidir.

Müraciətinin qeydiyyata alınması və təqdim edilməsi üçün qəyyumun Sığınacaq İdarəsinə bir forma göndərir. Bundan sonra sənə görüş vaxtı təyin edilir və həmin gün qəyyumunla birlikdə sığınacaq müraciətini edirsən, onu qeydiyyatdan keçirir və təqdim edirsən. Müraciətin elə həmin gün qeydiyyata alınır.

Qəyyumun, müvəqqəti qəyyumun və ya yaşadığın yerdə çalışan böyüklər səni həmin gün barədə məlumatlandıracaq, qəyyumun isə səni aidiyyəti dövlət orqanlarına müşayiət edəcək.

Prosedur zamanı qəyyumunuz sizi müşayiət edəcək.



Qeydiyyat və təqdim etmə zamanı aşağıdakılar baş verəcək......





Siz özünüzlə gətirdiyiniz bütün şəxsiyyəti təsdiq edən sənədləri (pasport, şəxsiyyət vəsiqəsi və s.) rəsmi şəxslərə göstərməlisiniz.

Üzəriniz və əşyalarınız axtarıla bilər.  Səlahiyyətli qurumlar əşyalarınızı bir müddət saxlaya bilər, lakin təhlükəli olanlar istisna olmaqla, hamısını sizə geri qaytarılacaq.





Fotoşəkiliniz çəkiləcək.

Barmaq izləriniz götürüləcək.







həkimə müraciət edə bilərsiniz

- rəsmi şəxs sizə həm özünüz, həm də Avropadakı ailəniz barədə suallar verəcək.
- əlavə məlumat toplanacaq: dinin və ya etnik mənsubiyyətin, danışdığın və ya başa düşdüyün dillər, eləcə də oxuduğun məktəb və ya məktəblər haqqında.

Rəsmi şəxs sizdən əlaqə məlumatlarınızı (ünvanınız və telefon nömrəniz) təqdim etməyinizi xahiş edəcək.



Sizə aşağıdakılar barədə əlavə suallar veriləcək:

- siz və ailəniz
- ölkəniz və yaşadığınız bütün yerlər
- ölkənizi tərk etməyinizin və geri qayıtmaq istəməməyinizin səbəbləri
- Almaniyaya necə səyahət etmisiniz





# Yadda saxlayın!

Qəyyumunuzla danışmağınız və sığınacaq verən səlahiyyətli qurumlarda əməkdaşlıq etməyiniz çox vacibdir.

Qəyyumunuza və ya rəsmi şəxslərə dedikləriniz məxfi qalacaq. Sığınacaq prosesi zamanı paylaşdığınız hər bir məlumat tamamilə məxfi saxlanılır. Bu, sizin və ailənizin təhlükəsizliyini təmin etmək üçün ən mühim qaydalardan biridir:



# Sığınacaq proseduru zamanı Almaniyada qala bilərəm?





Qeydiyyatdan sonra səlahiyyətli qurumlar müraciətinizə hansı ölkədə baxılacağı haqqında qərar verəcəklər. Bu ya Almaniya, ya da başqa bir Avropa ölkəsi olacaq. Ölkəni seçə bilməzsiniz, amma maraqlarınız nəzərə alınacaq. Səlahiyyətli qurumlar bunu sizə izah edəcəklər.





Qeydiyyat zamanı rəsmi şəxslərə aşağıdakı məlumatları verməyiniz çox vacibdir:

- başqa bir Avropa ölkəsində ailəniz varmı
- bundan əvvəl başqa bir Avropa ölkəsində sığınacaq üçün müraciət etmisinizmi.

Əgər Avropada ailəniz varsa, ailəniz haqqında bütün bildiklərinizi rəsmi şəxslərə deməlisiniz. Sizin onlarla birlikdə ya bu ölkədə, ya da onların yaşadıqları ölkədə qalmağınız mümkündür.

Ailənizin harada olduğunu bilmirsinizsə və ya onlarla əlaqənizi itirmisinizsə, ailənizi tapmaq üçün qəyyumunuzdan və ya hüquqi nümayəndənizdən kömək istəyə bilərsiniz.





Qeydiyyatdan keçdikdən və müraciət təqdim edildikdən sonra nə baş verəcək?



Müraciətiniz təqdim edildikdən sonra sizə sığınacaq istədiyinizi bildirən sənəd veriləcək. Bu sənəd vacibdir, ona görə də ona yaxşı baxın. Qaldığınız yerdən çıxarkən və ya səlahiyyətli qurumlarla görüşə gedərkən onu həmişə özünlə götürün.



# Səlahiyyətli qurumlar mənim yaşımı necə təyin edəcək?





Əgər yaşınızı təsdiq edən sənədləriniz yoxdursa və səlahiyyətli qurumların yaşınızla bağlı şübhələri varsa, sığınacaq orqanlarının əməkdaşları sizdən yaşın müəyyənləşdirilməsi prosesindən keçməyi xahiş edə bilərlər. Bu, yaşınızı təxmini müəyyən etməyə kömək edən bir prosedurdur.

Yaşınızı təxmini müəyyən etmək üçün müxtəlif üsullar mövcuddur.

Məsələn, bu qərar sizin təqdim etdiyiniz sənədlərə, yaxud rəsmi şəxslər və ya müxtəlif mütəxəssislərlə keçirdiyiniz müsahibələrə əsaslana bilər. Əlavə şübhələr yaranarsa, sizdən tibbi müayinədən keçməyiniz xahiş oluna bilər. Bu halda, sizdən və qəyyumunuzdan razılıq verməyiniz xahiş olunacaq.

Yaş qiymətləndirməsi nəticəsində yaşınızın 18-dən yuxarı olduğu qənaətinə gəlinərsə, yetkin hesab ediləcəksiniz. Bu halda, daha çox məlumat alacaqsınız.





Əgər səlahiyyətli orqanlarda kiminsə sizə zərər vurduğu barədə təəssürat yaranarsa, onlar sizə həkimə müraciət etməyi təklif edəcəklər.

Tibbi müayinənin nəticələri müraciətinizə baxılarkən nəzərə alınacaq.



Müraciətiniz təqdim edildikdən sonra sizinlə bir və ya daha çox fərdi müsahibə keçirə bilər.

Bu o deməkdir ki, səlahiyyətli şəxs sizə özünüz, ölkəni niyə tərk etdiyiniz və hansı səbəbdən geri qayıtmaq istəmədiyiniz barədə daha çox sual verəcək. Əgər səlahiyyətli qurumlar sizi müsahibədə iştirak etməyə çağırarsa, siz həmin müsahibədə iştirak etməlisiniz və xatırladığınız bütün faktları onlara deməlisiniz. Müsahibənin audio yazısı aparılacaq.

Qəyyumunuz müsahibənin keçiriləcəyini vaxt və yeri bardə sizə məlumat verəcək və müsahibə zamanı sizə dəstək olacaq.



# Rəsmi şəxsin dilini başa düşmədiyim halda nə etməliyəm?





Sığınacaq orqanının əməkdaşlarının danışdığı dili başa düşmürsünüzsə dilinizdə danışan tərcüməçi başa düşməyinizə sizə kömək edəcək.

Tərcüməçinin sizin işində rolu yalnız deyilənləri tərcümə etməkdən ibarətdir. Sizin işinizlə əlaqəli olan səlahiyyətli şəxsə və tərcüməçiyə danışdıqlarınız məxfi saxlanılacaq.

Özünüzü tam şəkildə ifadə etməyinizə kömək edəcəksə, şəxsi müsahibə zamanı kişi və ya qadın tərcüməçinin və ya müsahibə aparanın iştirak etməsini xahiş edə bilərsiniz. Mümkün olduqda, bu təmin ediləcək. Qadın və ya kişiyə üstünlük verdiyinizi mümkün qədər tez və müsahibədən əvvəl qəyyumunuza bildirin.



Bu proses nə qədər vaxt aparacaq?





Müsahibədən sonra sizin izah etdiyiniz bütün faktlar araşdırılacaq.

Müraciətin təqdim edildiyi gündən etibarən qərarı almaq üçün 6 aya qədər gözləməli ola bilərsiniz. Bəzən bu daha uzun çəkə bilər, lakin 21 aydan artıq olmamalıdır. Gözləmək çətin ola bilər, amma səbirli olun. Səlahiyyətli qurumlar sizin üçün düzgün qərar vermək istəyirlər.

Gözləmə müddətini səmərəli keçirmək istəyirsinizsə, kömək üçün hər zaman qəyyumunuza müraciət edə bilərsiniz.



Bir dostum dedi ki, səlahiyyətli qurumlar onun sığınacaq müraciətinə baxmayacaq. Bunun səbəbi nədir?





Səlahiyyətli qurumlar ilk növbədə sığınacaq müraciətinin onlar tərəfindən baxılmalı olub-olmadığını yoxlayırlar.

Əgər siz artıq başqa bir ölkədə müdafiə almısınızsa və ya səlahiyyətli qurumların təhlükəsiz hesab etdiyi bir ölkədən gəlmisinizsə, onlar sizin müraciətinizə heç baxmaya bilərlər.

# Hansı qərarı alacağam?





Sığınacaq orqanları sizin sığınacağa ehtiyacınız olub-olmadığına və ya sizin üçün başqa seçimlərin olub-olmadığına dair qərar verəcək.

Qərar sizə izah ediləcək.



Əgər qərar mənfi olarsa və siz və ya qəyyumunuz bununla razılaşmasanız, qərarı məhkəməyə verib ona etiraz edə bilərsiniz. Bu, apelyasiya şikayəti adlanır.





# Sığınacaq proseduru haqqında daha ətraflı məlumatı necə əldə edə bilərəm?





Qəyyumunuzdan əlavə, sığınacaq prosedurunu, hüquq və vəzifələrinizi sizə izah edə biləcək hüquqi məsləhətçilər də var.

Onlarla necə əlaqə saxlaya biləcəyinizi qəyyumunuzdan soruşa bilərsiniz.



Bir vəkilin sizə kömək etməsini istəyirsinizsə, qəyyumunuz və ya başqa bir səlahiyyətli şəxs ilə danışın.





Vəkil qəyyumunuzla birlikdə sizə aşağıdakı məsələlərdə kömək edə bilər:



səlahiyyətli qurumlarla müsahibəyə hazırlaşmaq.



sığınacaq ilə bağlı səlahiyyətli şəxslərlə danışmaq



sığınacaq üçün müraciətinizlə bağlı qərarı nəzərdən keçirin və siz və ya qəyyumunuz qərarla razılaşmadığınız təqdirdə apelyasiya şikayəti verin.



Sığınacaq prosedurunun istənilən mərhələsində BMT Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) ilə əlaqə saxlaya bilərsiniz.

BMT QAK sığınacaq axtaran şəxslərin və qaçqınların maraqlarını və hüquqlarını qoruyur.

BMT QAK-da çalışan insanlar sığınacaq axtaranlara məlumat və yardım göstərirlər.

BMT QAK-ın https://help.unhcr.org/ internet səhifəsində tapa bilərsiniz



UNHCR
The UN Refugee Agency

## Özümü pis hiss edirəmsə və ya tez-tez narahat oluramsa, necə yardım ala bilərəm?





Əgər aşağıdakı hallardan biri varsa, qəyyumunuza, səlahiyyətli şəxsə və ya qaldığınız yerdə çalışan işçilərə bunu bildirin:



Kimsə sizi incidib

Kədər, qəzəb, qorxu hiss edirsiniz və ya yuxuya getməkdə çətinlik çəkirsiniz

Əlillik və ya xəstəlik kimi digər çətinlikləriniz varsa və ya hamiləsiniz

Belə hallarda sizə yardım göstəriləcək

# Hansı öhdəlikləriniz var?



Bəli



Bu ölkənin qanun və qaydalarına riayət etməlisiniz.

Qanun və qaydalar barədə şübhələriniz olarsa, qəyyumunuza müraciət edin.




Qəyyumunuzun sizə qalmağı dediyi yerdə qalmalısınız.

Səlaiyyətli qurumlar sizin üçün qalmaq yeri seçiblər. Rəsmi qurumların icazəsi olmadan Almaniyanı və ya həmin yeri tərk etməyin və ya oradan qaçmayın.



Rəsmi şəxslərlə əməkdaşlıq etməlisiniz

Tələb olunduqda, onların suallarına cavab verməlisiniz və göstərişlərinə əməl etməlisiz.



Sizə verilən sualları cavablandırdıqda dürüst olun və bütün bildiklərinizi rəsmi şəxslərə danışın.

Dedikləriniz müraciətiniz üçün çox vacibdir.

Hər şeyi xatırlamaya bilərsiniz, ona görə də bütün suallara cavab verə bilməyəcəksiniz. Bu halda, cavablar uydurmayın, sadəcə xatırlamadığınızı izah edin.

Səlahiyyətli qurumlarla bütün görüşlərdə iştirak etməlisiniz.

Bu görüşlər çox vacibdir. Təyin edilən gün və saatda gəlməlisiniz.







Düzgün **əlaqə məlumatlarını** təqdim etməlisiniz.

Bütün lazımi məlumatları aldığınızdan və görüş təyin etdiyinizdən əmin olmaq üçün səlahiyyətli şəxslərə ünvanınızı və ya telefon nömrənizi verməlisiniz. Qəyyum da bu məlumatı alacaq və sizə təyin olunmuş görüşləri xatırlada biləcək. Əlaqə məlumatlarınız dəyişərsə, qəyyumunuza və sığınacaq verən orqanların işçilərinə bildirin. Onların sizinlə rahat əlaqə saxlaya bilməsi vacibdir.

**Əlinizdə olan bütün sənədləri** səlahiyyətli **şəxslərə** təqdim etməlisiniz.

Onlara sizinlə əlaqəli bütün sənədləri verin və ölkənizi tərk etməyinizin səbəblərini göstərin. Buraya şəxsiyyəti təsdiq edən sənədlər (pasport), doğum və ya orta təhsil haqqında şəhadətnamə, tibbi sənəd və ya digər sənədlər daxildir.

Bütün məlumat və sənədləri ən qısa müddətdə təqdim etməlisiniz.

Hazırda sənədləriniz yoxdursa, onları daha sonra təqdim edə bilərsiniz. Qəyyumunuzla danışın. Qəyyumunuz həmin sənədləri əldə etməyinizə və onları vaxtında səlahiyyətli orqanlarla göndərməyinizə kömək edə bilər.

**Əgər** öhdəliklərinizi yerinə yetirə bilmirsinizsə, dərhal qəyyumunuza və **sığınacaq** ofisinin **əməkdaşlarına** bildirin və səbəbini izah edin.





# Öhdəliklərimi yerinə yetirməməyim nə ilə nəticələnəcək?



Öhdəliklərinizi yerinə yetirməməyiniz müraciətinizə mənfi təsir göstərə bilər.

İzah etdiyim müəyyən hüquqlarınızı və dəstək xidmətlərini itirə bilərsiniz.



Öhdəliklərinizi yerinə yetirməsəniz sizə **sığınacaq** verilmə prosedurunuza xitam veriləcək və ya müraciətiniz rədd ediləcək, məsələn:

- səlahiyyətli şəxslərin suallarını cavablandırmırsınız, və ya
- barmaq izlərinizin alınmasına icazə vermirsiniz, və ya
- qaldiğınız yeri icazəsiz tərk etmisiniz.

Belə hallarda səlahiyyətli qurumlar sizin müraciətinizə ciddi yanaşmadığınızı düşünəcək. Siz artıq müraciət edən şəxs hesab olunmayacaqsınız və sizə göstərilən bütün dəstək növlərini itirəcəksiniz.



Əgər özünüz və ya hekayəniz haqqında səlahiyyətli orqanlara həqiqəti deməsəniz, vacib məlumatları gizlətsəniz və ya sənədlərinizi qəsdən məhv etsəniz, müraciətiniz rədd edilə və sizə sığınacaq verilməyə bilər.

Səlahiyyətli qurumlar sonradan sığınacaq proseduru zamanı həqiqəti söyləmədiyinizi aşkar etsələr, sığınacaqdan məhrum oluna bilərsiniz.







Sizə bilməli olduğunuz ən vacib məqamları izah etdim. Qəyyumunuz və səlahiyyətli qurumlar sığınacaq proseduru zamanı sizə əlavə izahlar verəcəklər.




Yadda saxlayın! Sığınacaq üçün müraciət tam ödənişsizdir



# Ehtiyatlı olun

Sizdən xidmət və ya pul müqabilində kömək təklif edən insanlara qarşı ehtiyatlı olun. Onların pis niyyətlli ola bilərlər.



Kimsə sizi getməyə təşviq edə bilər. Amma unutmayın ki, getməməlisiniz, çünki bu sizn üçün təhlükəli ola bilər.





Əgər kimsə sizi istəmədiyiniz və ya düzgün görünməyən bir hərəkəti etməyə razı salmağa çalışırsa, bunun barəsində dərhal qəyyumunuza və ya qaldığınız yerdə çalışan böyüklərə məlumat verin.



# Əgər öz ölkəmə qayıtmaq və müraciətimi dayandırmaq istəsəm, nə etməliyəm?





Əgər ölkənizə qayıtmaq və müraciətinizi dayandırmaq istəyirsinizsə, qəyyumunuza və səlahiyyətli orqanlara bu barədə məlumat verin. Onlar sizə təhlükəsiz şəkildə geri qayıtmağınıza kömək edə bilərlər.



Əgər indi izah etdiyim məsələlərlə bağlı əlavə sualınız yaranarsa, mütləq qəyyumunuzdan, rəsmi şəxslərdən və ya qaldığınız yerdə çalışan əkmədaşlardan soruşun.



Bu broşür yalnız məlumat məqsədi daşıyır. Broşür öz-özlüyündə hüquq və ya öhdəliklər yaratmır. Bu materialın əsas hissəsini EUAA (Avropa İttifaqının Sığınacaq Agentliyi) təqdim edib və bu broşürün surətinin çıxarılması və ona dəyişikliklərin edilməsi EUAA tərəfindən yalnız Aİ Üzv Dövlətləri üçün icazə verilir. EUAA, bu broşürdə yer alan məlumatların dəqiqliyi, məzmunu, bütövlüyü, qanuniliyi və ya etibarlılığı üçün Aİ Üzv Dövlətləri və ya hər hansı digər məsul üçüncü tərəf tərəfindən heç bir məsuliyyət daşımır. Nə EUAA, nə də EUAA adından hərəkət edən hər hansı bir şəxs bu broşürdə yer alan məlumatların istifadəsinə görə məsuliyyət daşımır.

© European Union Agency for Asylum, 2025